KÜRD xalqı mübariz və qəhrəman xalqdır
H.Əliyev

# DÎPLOMAT

www. Diplomata-kurdi.com

№ 16 (164), 01 - 07 May, G û l a n - sal 2012
Ji meha şûbatê sala 2003-a tê weşandin

*Həftəlik İctimai-siyasi qəzet*
*Rojnama heftename civakî û sî yasî*

Qiyməti, Hêjaye, 40 qəpik

Bilirsən, nə etmiş kürdlər bir zaman?
Qurtarmış İslamı çox ağır dardan!

Qədim Avropanın xaçpərəstləri,
Yüz illər sındırmış göy məsçidləri.

Müsəlman keçmişin öyrənsə əgər,
Kürdün dərgahına daim baş əyər.

Səbahəddin Eloğlu



Prezident İlham Əliyev Bolqarıstan Respublikasının Baş naziri Boyko Borisovu qəbul etmişdir



Səh. 16

Коалиция Правового государства против встреч в Эрбиле



Səh. 4

Bərzani: "Kürd qanının tökülməsinə imkan verməyəcəm"



Səh. 3

ABŞ-ın "Kürdüstan layihəsi" reallaşır?



Səh. 4

İraq parlamenti tarixində bir ilk - TÜRKMƏN məsələsi



Səh.11

Civata Wezîran li ser bû dceya Herêmê civîya



Səh. 5

Ağılsız köpək ulduza hürər

Canlı kalkanlar operasyonu durdurdu Səh. 8

Sadr Başkent Hewler'de Səh. 9

Делегация БДП в Сан-Франциско Səh. 15

ŞƏRƏF XAN BİDLİSİNİN «ŞƏRƏFNAMƏ» ƏSƏRİ KÜRD XALQININ TARİXİ MƏNBƏYİ KİMİ Səh. 7

Li Mêrdî nê operasyona leşkerî Səh. 11

"Эрдоган ищет повод для вторжения в Сирию" - лидер турецких националистов Səh. 13



Səh. 6

MƏNİM ATA YURDUM, VEDİBASARIM



Səh. 8

Demirtaş: Biz çözmeliyiz



Səh. 8

Tuncel: Kürtlere yönelik nefret söylemlerine son verilsin



Səh. 3

Türkiyədə yeni həbs dalğası: "Müxalifət lideri Ərdoğanı ittihamladı"

# İlham Əliyev Türkiyənin elm, sənaye və texnologiya naziri Nihat Ergünün başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir



Azərbaycan ilə Türkiyə arasında əlaqələrin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini vurğulayan Prezident İlham Əliyev elm, sənaye və texnologiya sahəsində də əməkdaşlığın genişləndirilməsi üçün yaxşı imkanların olduğunu qeyd etdi.

Dövlət başçısı Türkiyənin elm, sənaye və texnologiya naziri Nihat Ergünün ölkəmizə səfərinin bu sahədə əməkdaşlıq imkanlarının müəyyənləşdirilməsi baxımından önəmli olacağına əminliyini ifadə etdi.

Türkiyə Respublikasının elm, sənaye və texnologiya naziri Nihat Ergün Prezident Abdullah Gülün və Baş nazir Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırdı. Nihat Ergün Azərbaycana səfərindən və Prezident İlham Əliyev ilə görüşündən böyük məmnunluq hissi keçirdiyini dedi. Türkiyəli nazir səfər zamanı rəhbərlik etdiyi nazirliklə Azərbaycanın müvafiq qurumları arasında əməkdaşlığın genişləndirilməsi ilə bağlı səmərəli müzakirələr aparacaqlarına ümidvar olduğunu vurğuladı.

Dövlət başçısı Prezident Abdullah Gülün və Baş nazir Rəcəb Tayyib Ərdoğanın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkiyənin Prezidentinə və Baş nazirinə çatdırmağı xahiş etdi.

# İlham Əliyev Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir



Prezident İlham Əliyev Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Filip Lefortun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Görüşdə Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlığın hazırkı vəziyyəti və perspektivləri, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

# İlham Əliyev İordaniya Senatı sədrinin birinci müavini Abdurrauf əl-Ravabidənin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir



Prezident İlham Əliyev İordaniya Senatı sədrinin birinci müavini Abdurrauf əl-Ravabidənin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

İordaniya Senatı sədrinin birinci müavini Abdurrauf əl-Ravabidə Azərbaycana səfərindən və Prezident İlham Əliyevlə görüşündən böyük məmnunluq hissi keçirdiyini dedi. Əsasını ulu öndər Heydər Əliyevin qoyduğu quruculuq işlərinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini vurğulayan Abdurrauf əl-Ravabidə Azərbaycanda gedən iqtisadi inkişaf proseslərinin ölkəsində maraqla izlənildiyini dedi. O, Azərbaycanın BMT Təhlükəsizlik Şurasına üzv seçilməsi münasibətilə dövlətimizin başçısını təbrik etdi.

Prezident İlham Əliyev Azərbaycan ilə İordaniya Krallığı arasında ikitərəfli münasibətlərin inkişafından məmnunluğunu bildirdi.

Dövlət başçısı ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində də uğurlu əməkdaşlıq etdiyini vurğuladı. Siyasi sahədə münasibətlərimizin yüksək səviyyədə olduğunu deyən Prezident İlham Əliyev iqtisadi və parlamentlərarası əlaqələr sahəsində də əməkdaşlığımızı genişləndirmək üçün yaxşı potensialın mövcudluğunu qeyd etdi.



# Prezident İlham Əliyev Bolqarıstan Respublikasının Baş naziri Boyko Borisovu qəbul etmişdir

Azərbaycan-Bolqarıstan ikitərəfli münasibətlərinin müxtəlif istiqamətlərdə, o cümlədən iqtisadi sahədə yüksələn xətlə inkişaf etdiyini vurğulayan Prezident İlham Əliyev ölkələrimiz arasında ticarət dövriyyəsinin səviyyəsinin razılıq doğurduğunu dedi. Dövlətimizin başçısı Bolqarıstanın Baş naziri Boyko Borisovun Azərbaycana səfərinin ikitərəfli münasibətlərimizin yeni istiqamətlərinin müəyyənləşdirilməsi baxımından əhəmiyyətini qeyd etdi və səfərin uğurlu olacağına əminliyini bildirdi.

Baş nazir Boyko Borisov Bolqarıstan ilə Azərbaycan arasında yaxşı əməkdaşlıq ənənələrinin mövcudluğunu vurğulayaraq, əlaqələrimizin genişləndirilməsi üçün böyük imkanların olduğunu qeyd etdi.

Sonra görüş nümayəndə heyətlərinin iştirakı ilə davam etdirildi.

Dövlətimizin başçısı Baş nazir Boyko Borisovun böyük nümayəndə heyəti ilə ölkəmizə səfərinin önəmini qeyd etdi. Prezident İlham Əliyev ölkəmizin Bolqarıstan ilə ikitərəfli əlaqələrin konkret layihələrlə daha da genişləndirilməsində maraqlı olduğunu dedi. İqtisadi sahədə əlaqələrə toxunan dövlətimizin başçısı enerji sektorunda əməkdaşlığın genişləndirilməsi üçün yaxşı potensialın olduğunu vurğuladı, nəqliyyat, turizm, informasiya texnologiyaları, kənd təsərrüfatı və digər sahələrdə əməkdaşlığı inkişaf etdirməyin önəmini qeyd etdi. Prezident İlham Əliyev Bolqarıstanın Baş naziri Boyko Borisovun ölkəmizə səfərinin ikitərəfli münasibətlərimizin daha da möhkəmləndirilməsi baxımından konkret nəticələr verəcəyinə əminliyini ifadə etdi.

Bolqarıstanın Baş naziri Boyko Borisov müzakirə olunan məsələlərin xalqlarımız və ölkələrimiz arasında əlaqələrin daha da genişləndirilməsi işinə xidmət edəcəyinə ümidvar olduğunu bildirdi. Baş nazir ayrı-ayrı sahələrdə əməkdaşlığımızın inkişafı ilə bağlı qarşıda duran məsələlərin həyata keçirilməsi üçün müvafiq struktur rəhbərlərinin qarşılıqlı səfərlərinin əhəmiyyətini vurğuladı.

Sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Bolqarıstan Respublikasının Baş naziri Boyko Borisov birgə nahar etdilər.

# Milli Məclis Şuşanın işğalının 20 illiyi ilə bağlı qərar qəbul edəcək

### *Mayın 1-də keçiriləcək plenar iclasının gündəliyinə dəyişiklik edilib*



Milli Məclisin (MM) mayın 1-də keçiriləcək plenar iclasının gündəliyinə dəyişiklik edilib. MM-in mətbuat xidmətinin rəhbəri Akif Təvəkküloğlunun APA-ya verdiyi məlumata görə, iclasda "Şuşa şəhərinin işğalının 20 illiyi haqqında" məsələ də müzakirə olunacaq.

Belə ki, iclasda Şuşa şəhərinin erməni hərbi birləşmələri tərəfindən işğalının 20 illiyi ilə bağlı müzakirələr aparılacaq, həmçinin qərar qəbul olunacaq. A.Təvəkküloğlu hazırda qəbul olunacaq qərar layihəsinin üzərində iş aparıldığını vurğulayıb.

Qeyd edək ki, sessiyada ümumilikdə 6 məsələ müzakirə ediləcək.

# ABŞ-ın "Kürdüstan layihəsi" reallaşır?

***ABŞ prezidenti Barak Obama və vitse-prezident Joe Biden İraq kürdlərinin lideri Məsud Bərzani ilə görüşüb***





İslamazeri.az-ın Türkiyə mətbuatına istinadən xəbərinə görə, Ağ evdə baş tutan görüşdə artıq

ABŞ tərəfindən üç yerə bölünən federal, demokratik və birləşmiş İraqla "strateji əməkdaşlıq məsələləri" müzakirə olunub. Əvvəlcə görüş yalnız Vitse-prezdient Bidenlə nəzərdə tutulsa da sonradan Obama da Bərzaninin pişvazına çıxıb.

ABŞ-da ABŞ-ın müdafiə naziri Leon Panetta, dövlət katibi Hillari Klintonun və dövlət katibinin müavini Bill Burnsla da görüşlər keçirən Məsud Bərzaninin şərəfinə nahar da verilib.

Qeyd edək ki, İraqı ötən il "tərk edən" ABŞ hazırda ölkənin parçalanması istiqamətində ciddi iş aparır. Belə ki, bir müddət əvvəl İraq kürdlərinin lideri Məsud Bərzani "Müstəqil Kürdüstan"ın yaxın vaxtlarda elan ediləcəyini bildirmişdi. İraqın baş nazirinin müavini Haşiminin ölkəni tərk etməsi, CİA-ın rəhbərinin də regionda nüfuza malik olan Türkiyəyə gəlməsi və "buna göz yumun" təklifi hələ ki, Ərdoğan tərəfindən qəbul olmasa da son hadisələr o cümlədən Bərzaninin bu cür təmtəraqla qarşılanması tezliklə ABŞ-ım "Kürdüstan layihəsi"ni reallaşdıracağını əks etdirir.

***xebername.az***



## "Əl-Maliki İraqı diktaturaya doğru aparır" – kürd muxtariyyətinin rəhbəri

İraqda vəziyyət son dərəcə təhlükəlidir, çünki ölkənin Baş naziri Nuri əl-Maliki İraqı diktaturaya doğru aparır. Bunu Şimali İraq Kürd Muxtariyyətinin rəhbəri Məsud Bərzani bəyan edib. Bərzani bəyan edib ki, öz narahatlığını ABŞ prezidenti Barak Obama ilə də bölüşüb. O həmçinin qeyd edib ki, Bağdadla Kürd administrasiyası arasında bütün problemləri müzakirə etmək üçün İraq hakimiyyəti ilə təcili görüşmək fikrindədir. Bərzaninin sözlərinə görə, tərəflərin konkret dəyişikliklərlə bağlı razılığa gələ bilməyəcəkləri halda Kürd administrasiyası əl-Malikini İraq hökumətinin rəhbəri hesab etməkdən imtina edəcək.

***Yenisharq.org***

## İraqın qaçmış vitse-prezidenti Tarik Haşimi geriyə dönmək niyyətindədir



Deyerler.Org: İraqın vitse-prezidenti Tarik Haşimi BBC-yə müsahibəsində bildirib ki, İraqda terrorizm ittihamı ilə axtarışda olmasına baxmayaraq, yaxın günlərdə Kürdüstan vilayətinə getməyi düşünür.\bbc\

Hazırda Haşimi Türkiyədədir. Onun sözlərinə görə, indi o ölkənin baş naziri Nuri Malikiyə qarşı inamsızlıq votumu təqdim etməyə hazırlaşan İraq parlamentinin deputatları ilə danışıqlar aparır.

Xatırladaq ki, Tarik Haşimi keçən ilin dekabr ayında Nuri Malikini qabiliyyətsizlikdə ittiham edərək ölkəni tərk edib.

***/Deyerler.Org/***

## Türkiyədə yeni həbs dalğası: "Müxalifət lideri Ərdoğanı ittihamladı"



Çərşənbə günü Türkiyənin İstanbul, Ankara və İzmir şəhərlərində hərbçilər arasında üçüncü həbs dalğası baş verib.Yeddi hərbi qulluqçu, o cümlədən istefada olan general Fevzi Türkeri həbs olunub. Həbslər 1997-ci il 28 fevral hadisələri üzrə cinayət işinin araşdırılması ilə əlaqədardır. Həmin cinayət işinə görə bir qrup hərbi qulluqçu "Türkiyə Cümhuriyyəti hökumətinin devrilməsinə hazırlıqda və hökumətin öz funksiyalarının (görəvlərini) yerinə yetirməsinə qismən, yaxud tamamilə mane olmaqda" günahlandırılır. Bu barədə Türkiyə mətbuatı məlumat yayıb.

Türkiyənin CHP müxalifət partiyasının sədri Kamal Kılıçdaroğlu 28 fevral hadisələri ilə bağlı açılmış cinayət işi çərçivəsində bu gün keçirilən əməliyyatların 3-cü mərhələsi ilə bağlı açıqlama verib. "Cihan"nın verdiyi xəbərə görə, istintaqın cadugər ovuna çevrildiyini söyləyən Kılıçdaroğlu, prokurorların baş nazirdən təlimat aldığını iddia edib. "Məni qaralayan baş nazir Ərdoğandır. İntiqam hissi ilə hüquq və ədalət axtarmaq olmaz. Prokurorlar baş nazirin təlimatını yerinə yetirir", - Kamal Kılıçdaroğlu deyib.

## Türkiyə-Suriya sərhədində şiddətli döyüşlər başladı

***Bəşər Əsəd qırğınlara yenidən start verdi***



***Suriyada atəşkəsin əldə olunmasının üstündən 24 saat keçməmiş prezident Bəşər Əsədin qüvvələri yenidən üsyançılara qarşı hərbi əməliyyatlara başlayıblar.***

Türkiyə mətbuatının yaydığı məlumata görə, Beyrutda fəaliyyət göstərən Suriya İnsan Hüquqları təşkilatının nümayəndəsi Rami Adbul Rəhman Türkiyə-Suriya sərhədinə yaxın Hırbıtcoz kəndində Suriya ordusu ilə müxalifət arasında şiddətli döyüşlərin getdiyini söyləyib.Rəhman döyüşdə iri çaplı silahlardan istifadə olunduğunu deyib.

***nbc.az***

# Suriyadakı ərəb və kürd qəbilələr "Öncə Vətən" dedilər



Suriyada ərəb və kürd qəbilə şeyxləri və mənsubları Haseke elində "Öncə Vətən" şüarı altında təşkil etdikləri forumda Suriya xalqının daxili işlərinə dair hər cür xarici müdaxiləni rədd etdiklərini, silahlı terror qruplarını silahlandırma çağırışlarını və bəzi mürtəce Ərəb rejimlərinin bu qruplara verdikləri media və siyasi dəstəyi qınayıb. (SANA)

Foruma qatılanlar tərəfli və düşmən media orqanlarının idarə etdiyi mətbuat təhriflərini və Suriyada qanın axıdılmasına ortaq olmalarını pisləyərək, Suriya xalqının şüuruna qarşı sui-qəsdin məğlubiyyətə uğradığını qeyd ediblər.

## Ərbakanın oğlu Ərdoğan hakimiyətini sözlə yıxıb-sürüdü

***"Amerikanı dost tutan rəhbərlik terror məsələlərinə xitam verə bilməz."***

***HaqqYolu - "Amerikanı dost tutan rəhbərlik terror məsələlərinə xitam verə bilməz."***



Səadət Partiyası nın Konqresinə qatılmaq üçün Ərzincana gələn Ümumi İdarə heyəti üzvü Fatih Ərbakan, Türkiyənin baş naziri Ərdoğan və AK Partiyanın terror siyasətlərini tənqid etdi. Ərbakan, "Amerika dost olaraq görüldüyü müddətdə, hakim partiya terror problemini həll edə bilməyəcəkdir-deyə bildirdi.

SP Mərkəz rayon Konqresinə qatılmaq üçün Gümüşhanədən Ərzincana gələn Fatih Ərbakan, Mədəniyyət Mərkəzi Müdirliyində "Mücahid Ərbakan" şüarları ilə qarşılandı. Alqışlar içində kürsüyə gələn Fatih Ərbakan, AK Partiya hökumətini tənqid etdi. Bütün insanlığın qurtuluş üçün gözünü tikdiyi Türkiyədə, AK Partiya hökumətinin 10 ildir ki, tək başına iqtidarda olmasına baxmayaraq, bütün insanlığın deyil, millətin belə qurtuluş üçün gözlədiyi addımları tam olaraq atamadığını irəli sürən Erbakan, "İqtidara gəldikdən dərhal sonra" biz terror problemini həll edəcəyiK 'dedilər . Bundan belə Türkiyədə sabitlik olacaq, terror problemi deyə bir problem qalmayacaq dedilər. Bunun üçün də ortaya qoyduqları layihə "Kürd Bucaqlımı Proyekti" gecə, gündüz sanki bir şey edirlərmiş kimi özlərini və sözlərini reklam etdilər, hamımızın başını ütülədilər. Bu Kürd açılımı dedikləri şeydən heç bir nəticə əldə edə bilmədik. Bu layihənin sonunda iki dənə nəticə ortaya çıxmışdır. Bunlardan birincisi Cənub-şərqdə gələn şəhid xəbərlərinin artması, ikincisi də BDP-nin millət vəkili sayının artması olmuşdur. Bunların xaricində heç bir nəticə əldə edə bilmədilər. Nə üçün belə oldu? Bunun cavabını bizlər çox yaxşı bilirik. Çünki terrorla mübarizədə ABŞ-ı ortaq və müttəfiq olaraq götürsəniz terrorla mübarizəni uğurla həyata keçirə bilməyəcəksiniz, terror problemini həll edə bilməyəcəksiniz. Əgər istihbaratınızı Amerikadan almağa davam etsəniz, sərhəddən keçməyə çalışan öz günahsız vatandaşlarınızı öz əlinizlə də öldürərsiniz, daha hələ yatağından yatmaqda olan 15 Mehmetciyin şəhid verərsiniz, on minlərlə vatandaşımızı şəhid verərsiniz. Amerikanı səmimi olaraq, dost olaraq görən hökumət terror problemini həll edə bilməz. Türkiyənin birliyini və bütövlüyünü mühafizə edə bilməz. Hər zaman ifadə etdiyimiz bir gerçək var. Donuzdan post Amerikadan dost olmaz. Amerika ilə hərəkət etdiyiniz müddətcə, Kürd açılımı deyil, nə bucaqlımı etsəniz edin, nəyi açsanız açın, terror problemini həll edə bilmək mümkün deyil. "Deyə bildirdi.

AK Partiya hökumətinin, qonşularla heç bir problem yoxdur deyə gecə-gündüz reklam etdikləri sözlərinə əlavə edən Ərkaban, "Ən sonunda etdikləri iş, düşmənçiliyə səbəb oldu. Problem yaşamadığımız bir dənə qonşu qalmadı. Buraxın problemi, bütün qonşularımızla döyüş edəcək nöqtəyə gətirdilər bizi. Bunların gecələri gündüzləri artım etməklə keçir. Işləri gücləri yeni vergilər icad etmək. Eynilə mərhum liderimizin ifadə etdiyi kimi 'Bu Türk əlifbasında hərf buraxmadım yeni vergilərin tətbiq edilməsi üçün."-deyə bildirdi.

***/news/azadxeber***



# Bərzani: "Kürd qanının tökülməsinə imkan verməyəcəm"

Şimali İraq kürd administrasiyasının rəhbəri Məsud Bərzani ABŞ və Türkiyədə keçirdiyi görüşlər barədə ölkəsindəki mətbuat mənsublarına açıqlama verib.

SalamNews-un Türkiyə mətbuatına istinadla verdiyi xəbərə görə, Bərzani açıqlamasında deyib: "PKK mövzusunda bizim mövqeyimiz aydındır. Biz sülh çərçivəsində bütün səyləri dəstəkləyirik, lakin silahlı həllin tərəfdarı deyilik".

Türkiyədə keçirdiyi görüşlərdə əsasən Suriya məsələsi və Türkiyənin daxili problemləri ilə bağlı müzakirələr apardığını qeyd edən Bərzani deyib: "Suriya kürdləri üçün Ərbildə birliyi təmin etmək məqsədi ilə təşkil etdiyimiz konfransdan başqa edə biləcəyimiz bir şey yoxdur. Türkiyənin daxili problemləri və PKK mövzusunda da bizim mövqeyimiz aydındır". Kürdlərin müstəqilliyini elan edib-etməyəcəkləri ilə əlaqədar suala isə Bərzani belə cavab verib:

"Müqəddəratımızı müəyyən etmək bizim haqqımızdır və bu günah deyil. Ancaq bunun da zamanı var. Əldə etdiklərimizi qorumalı və kürdlərin birliyini təmin etmək üçün çalışmalıyıq. Ancaq bunu aşkar ifadə edim ki, müstəqillikdən başqa kürd gənclərinin heç bir şey uğrunda qanının tökülməsinə imkan verməyəcəm".

# Davudoğlu Bərzanidən PKK-ya qarşı daha səmərəli mübarizə aparılmasını istəyib

Türkiyədə səfərdə olan Şimali İraq kürd administrasiyasının rəhbəri Məsud Bərzani bu gün Ankaraya gəlib və burada Türkiyənin xarici işlər naziri Əhməd Davudoğlu ilə görüşüb.



SalamNews-un "Ankara" agentliyinə istinadla verdiyi xəbərə görə, Xarici İşlər Nazirliyinin müşaviri Feridun Sinirlioğlunun da iştirak etdiyi görüşdə İraqda yaşanan siyasi böhran müzakirə olunub. Tərəflər həmçinin Suriyadakı hadisələr və onların bölgəyə göstərəcəyi təsirləri müzakirə ediblər.

Görüş zamanı Əhməd Davudoğlu Məsud Bərzanidən PKK terror təşkilatına qarşı daha səmərəli mübarizə aparılmasını istəyib. Bərzani öz növbəsində Davudoğluna ABŞ-da keçirdiyi görüşlər haqqında məlumat verib.

# İraq parlamenti tarixində bir ilk - TÜRKMƏN məsələsi




İraq parlamenti tarixində ilk dəfə olaraq türkmən məsələsi müzakirəyə çıxarılıb. Türkmən deputatlar tərəfindən hazırlanmış məruzə İraq Türkmən Cəbhəsi başqanı Ərşət Salehi tərəfindən oxunub. Məruzə parlamentin ərəb və kürd millət vəkilləri tərəfindən də dəstəklənib. Onlar Kərkük məsələsinin ədalətli həllinə tərəfdar çıxdıqlarını bildiriblər.

168.az Kərkük Xəbər Agentliyinə istinadən xəbər verir ki, məruzədə uzun illərdir, türkmən xalqının çəkdiyi iztirablar və məhrumiyyətlərdən söhbət açılıb. İndiyədək tapdanmış olan haqlarının bərpası istiqasmətində həyata keçirilməsi zəruri olan tədbirlər sadalanıb.

Parlamentin kürd deputatları türkmənlərin kürdlərlə demək olar, eyni taleni yaşadıqlarını vurğulayıblar. Çıxışlarda Kərkünün Tisin və Başir bölgələrindəki ərazilərin indiyədək öz sahiblərinə, yəni türkmənlərə qaytarılmaması təəssüf hissi ilə qeyd edilib. Çıxışlarda həmçinin tarixən türkmənlərin başına gələn ədalətsizliklərdən və haqsızlıqlardan dolayı onlara təzminat ödənilməsi tələbi səslənib.

# Türkiyə XİN-nin İraqla bağlı bəyanatı xalqımıza hörmətsizlik deməkdir - Homam Hammudi

***Bu cür bəyanatlar regionda sabitliyin pozulmasına gətirib çıxara bilər. Hesab edirəm ki, Türkiyə xarici işlər nazirliyinin İraqla bağlı bəyanatı bizim xalqa hörmətsizlik deməkdir. Bu barədə SalamNews –un İraqa ezam edilmiş müxbirinə İraq parlamentinin Beynəlxalq əlaqələr komitəsinin sədri Şeyx Homam Hammudi bildirib.***



O deyib: "İstərdim ki, bu cür bəyanatlar bir daha təkrarlanmasın. Parlamentdəki koalisiya gəlincə, biz İraqın şimalından cənubunadək xalqı təmsil edirik. İraq ərazisində sünnü, şiə, kürd, türkmən və digər xalqlar və dini məzhəblərin nümayəndələri yaşayır və bu ərazilərdə hər hansı hadisə baş verdikdə regionda böyük səs-küy yaradır. İraqda problemlərin olmamasını istəyən ölkələrin nəsihətinə sayğı ilə yanaşırıq. Lakin bəzi dövlətlər də var ki, İarqın həm daxili, həm də xarici işlərinə qarışır. Sanki nəyi necə edəcəyimiz barədə bizə təlimat verir. İraq müstəqil dövlətdir və qərarlarını da müstəqil şəkildə qəbul edir. İraq Konstitusiyası və xalqı kiminıərinsə bizə təzyiq etməsini qəbul etmir. Biz safniyyətlərin sonda başqa istiqamət almasını istəmirik".

Bildirək ki, Türkiyə Xarici İşlər Nazirliyinin İraqın Baş naziri Nuri Əl-Malikiyə qarşı səsləndirdiyi bəyanatlardan sonra, İraq parlamentində təmsil olunan ən böyük koalisiya Əl-Malikinin müdafiəsinə qalxaraq onu dəstəkləyib.

"Dövlət-ul-Qanun" (Qanun dövləti) adlanan koalisiyaya Nuri Əl-Malikinin "Dəavə" partiyası, Müqtəda Əs-Sədrin "Sədr" hərəkatı, Əmmar Əl-Həkimin "Əla" məclisi, İraq hökumətini rəsmi sözçüsü Əli Dəbbaq, Abbas Şəhristani və digər kiçik partiyalar və müstəqil deputatlar daxildir. 325 yerlik parlamentin 159–u koalisiyanın deputatlarına məxsusdur.

# İraq Türkiyəyə neft nəqlini dayandırdı

İraq Türkiyəyə neft satışını dayandırıb. Bu barədə xəbəri «MİGnyus» portalı yayıb. 168.az xəbər verir ki, məlumatlara görə, rəsmi Bağdad sutkada Türkiyəyə 450-500 min barel neft ixrac edir. Ankara ölkənin Almaniyadan sonra ən böyük ticarət partyorudur.



Qeyd edək ki, İraq hakimiyyəti Türkiyəyə neft nəqlinin texniki səbəblərdən dayandırıldığını bildirsə də, bir çox müşahidəçilər bu addımın siyasi əhəmiyyət daşıdığını önə çəkirlər. Onlar son vaxtlar Bağdadla Ankara arasında yaranmış gərginliyin müxtəlif aspektlərinə söykənirlər.

Diqqət ona çəkilir ki, neftin satışı aprelin 22-də dayandırılıb. Bir gün öncə isə İraqın ölkənin şiə çoxluğunu təmsil edən baş naziri Nuri əl-Maliki Türkiyəni «düşmən dövlət» adlandırıb. Maliki Ankaranın Suriyadakı və İraqdakı vəziyyətə aktiv müdaxiləsinə eyham vuraraq bildirib ki, ölkə regionda hegemonluğa can atır.

Onu da deyək ki, əks tərəf də vaxtilə İraq tərəfinə qarşı sərt fikirlər səsləndirib. Məsələn, Türkiyənin baş naziri Rəcəb Tayyib Ərdoğan İraq hakimiyyətini ölkədə dini müharibə yaratmaqda və proseslərə eqo mərkəzçi yanaşmada günahlandırıb. Ərdoğan vurğulayıb ki, əgər Malikinin yeritdiyi siyasət nəticəsində İraqda sünni-şiə qarşıdırması yaransa, Türkiyə buna münasibətdə seyrçi mövqe tutmayacaq.



# PKK-nın İstanbul qolu Ərdoğanın tərksilah təklifinə sərt cavab verib

Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın "PKK silahı yerə qoysa əməliyyatlar dayandırılacaq" bəyanatına ilk reaksiyanı PKK təşkilatının İstanbul qolu olan KCK verib. SalamNews-un Türkiyə mətbuatına istinadla verdiyi xəbərə görə, KCK-nın yazılı açıqlamasında deyilir: "Bəyanat xalq özünümüdafiə qüvvələri olan partizan dəstələri və hərəkatımıza qarşı aparılan zərərsizləşdirmə və təslimçilik siyasətindən başqa bir məna kəsb etmir.

Kürd problemini kürd liderlərlə birlikdə aradan qaldırmağı hədəfə alan Türkiyə dövləti tutduğu mövqeyi kökündən dəyişdirməsə, hərəkatımız və xalqımız heç nə gözləyə bilməz, gözləməsi də sadəlövhlük olar".

Xatırladaq ki, Qətərə səfəri zamanı jurnalistlərin suallarını cavablandıran Ərdoğan bəyan etmişdi ki, PKK tərksilah olacağı təqdirdə, Türkiyə dövləti təşkilata qarşı keçirilən əməliyyatları tam dayandıracaq.

# Ağılsız köpək ulduza hürər

Dünyanın inqilab sistemi, siyasətçiləri Azərbaycan xalqının xilaskarı, Ulu Öndər Heydər Əliyev cənablarının inqilabından, böyük siyasətindən dərs almalı və örnək götürməlidirlər. Beləki, Heydər Əliyev bir güllə atmadan, xalqın xahişi və tələbi ilə hakimiyyətə gəldi, Azərbaycanı və Azərbaycanda yaşayan azsaylı xalqları böyük fəlakətdən xilas etdi.

Dünya praktikasında isbat olunub ki, SSRİ kimi zorla, qan tökməklə hakimiyyətə gələn, dövlət quran ölkələrin sonu tökülən qanın bahasına məhv olub, dağılıb. Yerində Azərbaycan kimi Demokratik bir Respublika yaranib. Lakin nədənsə təsadüfən vəzifə başına gələn və həyatlarında vəzifə görməyən kreslo görməmişləri xəyallarındakı kresloları yuxuda görərək ağıllarına deyil ağızlarına gələni yazmağa çalışırlar. Çalışsalar da faydası yoxdur, çünki siyasi bünövrələri olmayıb. Ataların gözəl bir deyimi var: "Quyuya su tökməklə, quyudan su çıxmaz" - gərək bünövrəsində olsun, dibində damarında tapılsın.

Görəsən sizləri Cənubi Azərbaycandakı azərbaycanlıların durumu maraqlandırırmı? Əgər maraqlandırırsa bilməyinizi istəyirəm ki, istər Türkiyədə, istər İranda, istər Suriyada, istərsə də İraqda və dünyanın hansı hissəsində qəhrəman Kürd xalqının azadlığı və problemi uğrunda söhbət varsa bu məsələ mən Tahir Süleyman üçün də maraqlıdır.

Sizlər nəqədər Ergənəkon teror təşkilatının tərəfdarısınızsa, mən də bir o qədər Kürdüstan Azadlıq Hərakatı olan Kürdüstan İşçi Partiyasının tərəfdarıyam!

Mənim haqqımda düşünülməmiş yazı yazanlara bildirmək istəyirəm ki, insan sarsaq olarmış, axmaq olarmış, ama bu qədər də deyil. İnsanlığın bu qədər manqurdlaşmasını təsəvvür edə bilməzdim.

Sizlərin Azərbaycan tarixinin bu günündən xəbəriniz yoxdur, dünənindən, keçmişindən necə xəbəriniz olacaq? Çünki düşüncəsizlikdən başqa heç nə bilmirsiniz. Siz bilmirsiniz ki, Araz Azərbaycan Cumhuriyyətinin aqibəti necə oldu? Atanız Mustafa Kamal Leninlə öz problemlərinin həllinə gorə, Araz Azərbaycan Cümhuriyyətini kimlərə qurban verdilər?

Yəqin "Müsavat" hökumətinin aqibətindən az da olsa, bəlkə də xəbərdarsınız.

Araz çayı boyu Azərbaycan torpaqları Türkiyəyə hədiyə edildi, bunun əvəzi olaraq atanız Mustafa, Leninin köməyi ilə Türkiyə ermənilərini Qərbi Azərbaycana yerləşdirərək, xalqımıza olmazın faciələrini yaşatdılar. Borçalı mahalını da Gürcüstana pay verdilər. Üstəlik əhalisinin 92.06 % kürd olar Zəngəzur və Dərələyəz mahalları da ermənilərə pay verilərək Ermənistan SSR–i yaradıldı və nəticədə atanız Mustafa Kamalın kamalistləri ucbatından Qərbi Azərbaycan, Qarabağ və səkkiz rayonumuz ermənilərin himayəsinə keçdi. Hələ mən Borçalı mahalını demirəm. Zamanı gəldikcə bu məsələlərin gizli sirləri açılacaq. Ama onda çox gec olacaq, məsələləri vaxtinda araşdırıb aydınlatmaq lazımdır. Cənablar, bəzi özünü müxalifət qələminə verən Börusoy kimi yazarcıqlar var ki, köpəkdən fərqli olaraq, ulduzu görmədən hürürlər. Bəli, ataların bir hikmətli sözünü eşitmişdik: "Ağılsız köpək ulduza hürər" – demişlər. Amma ağılsız insanın onun-bunun fitvası ilə ulduz görmədən hürməsi maraqlı faciədir.

Bu gün də Türkiyə rəhbərlərinin Ermənistana "qayğı"sı haqqında sayımızda olan "Türk iş adamlarından Ermənistana "həyat qapısı" məqaləsinə baxarsınız və özünüz bir nəticə çıxararsınız.

***Tahir Süleyman***

# Türk iş adamlarından Ermənistana "həyat qapısı"

## *Rəsmi Ankara bu qapını niyə qapatmaq istəmir?*

**Cümşüd Nuriyev: "Müxtəlif bəyanatlarla məsuliyyətdən qaçmaq Türkiyə dövlətinə başucalığı gətirmir"**

Xəbər verildiyi kimi, noyabrın 22-də İrəvanda Türkiyə-Ermənistan Biznesinin İnkişafı Şurası və Ermənistan Sənayeçilər və Sahibkarlar İttifaqının birgə təşkilatçılığı ilə biznes forum keçirilib. Forumda Ermənistan və Türkiyə sahibkarları arasında gələcək əməkdaşlığın istiqamətlərini müəyyənləşdirən memorandum imzalanıb.

Azərbaycanın iqtisadi-siyasi maraqları ilə daban-dabana zidd olan və Türkiyənin ölkəmiz qarşısında götürdüyü mənəvi öhdəliyin tələblərini pozan bu olay rəsmi Ankaranı hərəkətə gətirib. Baş verən hadisə ilə əlaqədar açıqlama verən Türkiyənin Xarici İşlər Nazirliyinin mətbuat xidməti bu hadisənin Türkiyə dövləti ilə hər hansı bir şəkildə bağlantısı olmadığını bildirib: "Xaricdən maliyyələşən layihələrin həyata keçirilmə cəhdlərinin Türkiyə dövlətinə heç bir aidiyyəti ola bilməz. Bizim qəti mövqeyimizi bundan ibarətdir ki, qonşu ölkədə hər hansı layihə çərçivəsində iş görməyə çalışanlar, ilk növbədə, Azərbaycanı nəzərə almalı, münasibətlərimizin zədələnməməsi barədə düşünməlidirlər. Türkiyə dövlətinin bütün məsələlərdə torpaqları işğal altında olan Azərbaycanın haqlı mübarizəsini dəstəklədiyi və bu mövqeyindən geri addım atmayacağı hamıya məlumdur".

Rəsmi Ankaranın baş verənlərlə bağlı belə bir mövqe ortaya qoyması nə qədər mütərəqqi olsa da, Türkiyə Xarici İşlər Nazirliyinin problemin həllindən diplomatik şəkildə yayınması həqiqəti Azərbaycanın siyasi-iqtisadi fakir adamlarının etirazına



səbəb olub. Məlum bəyanatı Türkiyənin dövlət olaraq məsuliyyəti öz üzərindən atması kimi qiymətləndirənpolitoloq Cümşüd Nuriyev də açıqlamadakı fikirlərin məntiqə zidd olduğunu bildirdi: "Türkiyənin bu məsələdə öz yaxasını kənara çəkməsi doğru deyil. Beynəlxalq iqtisadi hüquqa görə, bir ölkənin qeydiyyatından keçən və orada fəaliyyət göstərən istənilən firma həmin hökumətin qanunlarına tabedir. Bu mənada Türkiyədəki bütün hüquqi şəxslər bu ölkənin qanunlarına tabedirlər. Əgər bu ölkə hər hansı bir dövlətə qarşı iqtisadi sanksiya tətbiq edirsə, həmin ölkənin firmaları da bu iqtisadi sanksiyanın tələblərinə uyğun şəkildə fəaliyyət göstərməlidir. Türkiyə xarici işlər naziri bundan imtina etsə də, iş imtina etməklə bitmir. Əgər hansısa firma Türkiyənin qanunlarını pozursa, o zaman Türkiyə bu şirkətlərin xarici ölkə və firmalarla bağladığı müqaviləni leqalizisiya etməməlidir. Bu müqavilələrin o zaman hüquqi qüvvəsi olur ki, bunlar hansısa üçüncü dövlət tərəfindən leqallaşdırılsın. Çünki Ermənistan və Türkiyə arasında diplomatik münasibət olmadığı üçün bu, üçüncü bir dövlətin vasitəçiliyi ilə leqallaşdırılmalıdır. Bunun üçün isə Türkiyə və Ermənistan dövlətlərinin razılığı olmalıdır. Əgər Türkiyə buna öz razılığını bildirməsə, həmin müqavilələrin hüquqi önəmi olmayacaq. Odur ki, Türkiyə tərəfi bu məsələni gündəmə gətirməli, həmin müqavilələrin əsassız olduğunu ortaya qoymalıdır".

Politoloqun sözlərinə görə, əslində Türkiyə dövlətinin imzalanmış müqavilələri adi kağız parçasına çevirməsi üçün yetərincə üsul və vasitə mövcuddur: "Türkiyədə xarici ticarət dövriyyəsi və ixrac haqqında qanunlar var. Bu qanunlara görə Türkiyə ərazisində istehsal olunan məhsulların başqa bir ölkənin ərazisində satılmasına və ya barəsində sanksiya verilən ölkədə istensal edilən məhsulların Türkiyə ərazisinə gətirilməsinə dövlət çox asanlıqla qadağa qoya bilər. Anti-dempinq rüsumu deyilən bir rüsum var. Bu rüsum ölkənin daxili bazarında gərginlik yaradacaq, milli istehsalı əngəlləyəcək ucuz məhsulların ölkə ərazisinə gətirilməsinin qarşısının alınmasında istifadə edilir. Yəni gətirilən mallara yüksək rüsum qoyulur. Belə rüsum həmin firmanın məhsullarının satışını çətinləşdirərək bu firmaları müflisləşdirir. Türkiyə bu addımdan da istifadə etməyib".

Politoloq Türkiyənin xarici işlər naziri Əhməd Davudoğlunun da ünvanına sərt ittihamlar səsləndirib: "Ya Davudoğlu bir diplomat ustalığı ilə bu məsələdən qaçır, ya da onun beynəlxalq iqtisadi hüquqdan xəbəri yoxdur. Ola bilməz ki, həmin ölkənin ərazisində fəaliyyət göstərən firmalarla bağlı Türkiyə dövləti məsuliyyət daşımasın. Onlar Türkiyə vətəndaşlarıdır. Türkiyə daxilində isə məhz Türkiyə qanunları fəaliyyət göstərir. Ermənistan ərazisində bağlanmış müqavilənin o zaman hüquqi gücü olacaq ki, Türkiyə tərəfi onu tanısın. Müxtəlif bəyanatlarla məsuliyyətdən qaçmaq, Türkiyə dövlətinə ən azı başucalığı gətirmir. Şübhəsiz ki, bu məsələdə ayrı-ayrı adamların marağı var. Lakin Türkiyə iqtisadi sanksiyalarla bunun qarşısını ala bilər".

Politoloq son illər Ermənistanla Türkiyə arasında ticarət dövriyyəsinin az qala fantastik səviyyədə artdığına diqqət çəkdi: "Son illər Ermənistanın xarici ticarət dövriyyəsində Türkiyənin çəkisi getdikcə artır. Bu çox təhlükəli bir prosesdir. Hər gün orta hesabla 8-10 yük maşını Gürcüstan vasitəsilə Ermənistana daxil olur. Ermənistanın tanınmış iqtisadçılarından biri olan Adons bildirir ki, son iki ildə Türkiyənin Ermənistan daxili bazarındakı payı 15-20% artıb. Əvvəl bu göstərici 2-3% miqdarında idi. Əgər iki il ərzində bu faiz 10 dəfə artıbsa, o zaman növbəti iki il ərzində bu rəqəm daha da artacaq. Türkiyə Ermənistanın daxili bazarını nəzarətə götürmək adı ilə hərəkət etsə də, əslində bu ölkədəki bir qrup adam bununla Ermənistanın güclənməsinə nail olur. Bu adamlar erməni əsilli türk iş adamlarından ibarətdir. Hesab edirəm ki, Türkiyə dövləti baş verənlərlə bağlı təcili ölçü götürməlidir. Çünki sonra gec olacaq".

# İraq Türkiyəyə nota verdi



İraq Türkiyəyə nota verib. Lent.az-ın "Hürriyet" qəzetinə istinadən verdiyi məlumata görə, bu gün Türkiyənin Bağdaddakı səfiri Yunus Dəmirər İraq Xarici İşlər Nazirliyinə çağırılıb. İraq Xarici İşlər Nazirliyinin müşaviri Labid Abbavi Yunus Dəmirərə Türkiyənin baş naziri Rəcəb Tayyib Ərdoğanın İraqın daxili işlərinə qarışan açıqlamalar verməsindən narahatlıq keçirdiklərini bildirib. İraq Xarici İşlər Nazirliyinin yaydığı məlumatda İraqın Türkiyədən sərt şəkildə narazı qaldığı vurğulanır.

Bu arada Türkiyənin NTV telekanalı sabah İraq parlamentinin sədri Usamə Nuceyfinin İstanbula gələcəyi barədə məlumat yayıb. Usame Nuceyfinin səfərinin iki ölkə arasında gərginləşən münasibətlərlə bağlı olub-olmadığı açıqlanmır.

Qeyd edək ki, iki ölkə arasında münasibətlər İraq baş naziri Nuri əl-Malikinin Türkiyəni düşmən dövlət kimi xarakterizə etməsi ilə başlayıb. Rəcəb Tayyib Ərdoğan isə Nuri əl-Malikiyə daha çox şou göstərməyə imkan verməmək üçün cavab verməyəcəyini bəyan edib. Şimali İraq Kürd Muxtariyyətinin lideri Məsud Bərzaninin və Nuri əl-Maliki hökumətinin həbs etməyə çalışdığı İraqın vitse-prezidenti Tarık El Haşiminin Türkiyəyə səfərləri də İraq hakimiyyətini ciddi narahat edib.

# İraqın gələcəyi təhlükə altındadır - Tariq əl-Haşimi



***İraqın sabiq vitse-prezidenti Tariq əl-Haşimi İraqın gələcəyinin təhlükə altında olduğunu bildirib. Trend-in məlumatına görə, bu barədə Türkiyənin Anadolu agentliyi xəbər verib. "İraqın gələcəyi təhlükə altındadır və bu ölkədə baş verən siyasi proseslər qonşu ölkələrə və xüsusən Türkiyəyə təsir edə bilər", - Haşimi deyib.***

O, həmçinin qeyd edib ki, İraqdakı siyasi çaxnaşma ölkəni məzhəblərarası toqquşmaya apara bilər.

Keçən ilin dekabrında İraqın sabiq vitse-prezidenti Tariq əl-Haşiminin həbsinə order verilib. Haşimi "terror fəaliyyətində" əli olmaqda şübhəli bilinir.

Haşimi uzun müddət İraqın şimalındakı kürd administrasiyasında sığınacaq tapsa da, bir ay əvvəl Səudiyyə Ərəbistanına gedib.




**SAĞALMIR VƏTƏN YARASI**

Sağalmır Vətən yarası,
Əlac ildən-ilə qaldı.
Ümidimiz, gümanımız,
Yenə sözə, dilə qaldı.

Bağrımızdan keçdi nizə,
Ağrını vurmadıq üzə.
Dirilik suyundan bizə,
Şüşədə bir gilə qaldı.

Xain sathasatındadır,
Göyün yeddi qatındadır.

Qorumuz kül altındadır,
Son çarəmiz külə qaldı.

Hanı ilk ocağım, hanı,
Selə döndü elin qanı.
Qarğa tutdu gülüstanı,
Həsrəti bülbülə qaldı.

Kürdoğlu dərdlə çağladı,
Köksünü özü dağladı.
Divanədir, həm ağladı,
Həm də gülə-gülə qaldı.

*2002*

**ELİN YUVASI DAĞILDI**

Elin yuvası dağıldı,
Ölə bilməm el içində.
Dörd divarın dustağıyam
Ölürəm panel içində.

Azalmır dumanım-çənim,
Xainlər şerimə qənim.
Könlüm sarı simdir mənim,
Sazda – doqquz tel içində.

Ərimir əsarət buzu,
Hər sözüm bir mələr quzu.
Taleyimin dan ulduzu
Axdı qanlı sel içində.

Daşdan-daşa dəydi başım,
Əritdi daşı göz yaşım.
Nə qədər qohum-qardaşım
Getdi bircə il içində.

Dərd məni yanakı süzür,
Dövran mənə dodaq büzür.
Zalım süd gölündə üzür,
Mənsə yanar göl içində.

Günəşim günorta batdı,
Naləm yeddi göyə çatdı.
Bağrıma min tikan batdı,
Gülüm yoxdur gül içində.

Şər gəldi, şeytan doğuldu,
Ümid bulağım soğuldu.
Elin yuvası dağıldı,
Ölə bilməm el içində.

*10.01.2003*

**VƏTƏN DƏRDİ SÖNMƏZ OLUR**

Basdırma, torpaq yanmasın,
Oğlum, axıt çaya məni.
Vətən dərdi sönməz olur,
Aparsın dəryaya məni.

Varaqlar sözümü geyib,
Qəm-qüssə bağrımı yeyib.
Bilmirəm tale nə deyib
Gətirmiş dünyaya məni.

Hanı gözəl Qarabağım,
Dağıtdılar dağım-dağım.
Sinəmi göynədən dağım,
Döndərdi bir yaya məni.

Dustaq yurdun adı qaldı,
Naləsi, fəryadı qaldı.
Dərdi qaldı, odu qaldı,
Saldı min ah-vaya məni.

Zaman dönür yeyin-yeyin,
Sədasıyam qırıq neyin.
Tutdum ətəyindən göyün,
Heç salmadı saya məni.

Bir gün səsim haqqa çatar,
Xain gözə bıçaq batar.
Məni duyanlar tay tutar
Günə məni, aya məni.

Kürdoğlunun çaldığı saz,
Həm Kür oldu, həm də Araz.
Bir qayada adımı yaz,
Yaşadar o qaya məni.

*26.12.2002*

**AĞLAMA, KÖNÜL, AĞLAMA**

Bu gün intiqam günüdür,
Ağlama, könül, ağlama!
Dərdimə əncam günüdür,
Sən də sinəmi dağlama,
Ağlama, könül, ağlama!

Qırxqız nə yaman ağlayır,
Başında duman ağlayır.
Şuşa, Laçın qan ağlayır,
İnləmə, qara bağlama,
Ağlama, könül, ağlama!

İgidə yas yaraşarmı,
Bağrına qəm daraşarmı.
Göz yaşından kar aşarmı,
Gəl daha belə çağlama,
Ağlama, könül, ağlama!

*8.05.1995*

**VERMƏRƏM**

Koroğluyam, Çənlibeli
Şaha, sultana verməręm.
Yurdumun bir qarışını
Bütün cahana verməręm.

Varaqlasın yaddaşını,
Səhənd ucaltsın başını.
Təbrizin bircə daşını
Yüz min Tehrana verməręm.

Kəsəcəyəm əlini də,
Böhtan deyən dilini də.
Ocağımın külünü də
Min Hayastana verməręm.

*26.12.1992*




**KIŞILƏR YERİNƏ GƏDƏLƏR QALIB**

Mən nifrət edirəm indi dünyaya,
Kişilər yerinə gədələr qalıb.
Kasıblar möhtacdır hər gələn yaya,
İnsan sayılanlar artıq azalıb.

Oğlanlar saymayır öz atasını,
Elə də saymayır qız anasını.
Valideyn çəkir hər xətasını,
Mərifət, qanacaq tamam azalıb.

Atasını bəyənməyən nanəcib,
Ondan tələb edir dolsun onda cib.
Nə işləyir, nə də alır məvacib,
Eylədiyi hərəkətlə alçalıb.
Qohumu, qonşunu bəyənməyən kəs,
Ha özünü öysə, əbəsdir, əbəs.
Ay nanəcib, nə titrəmə, nə də əs,
Tanrım sənə layiqli qələm çalıb.

Qalxmır ağbirçəyin ayağına qız,
Baxdıqca irişir həmin o arsız.
Həm də oxumur, qalıb savadsız,
Baxıb Nəriman Əyyub xəyala dalıb.

*07.01.2011.*

**VEDİNİN YANI DAĞLAR**

Vedinin yanı dağlar,
Mənsiz qalıbdır, ağlar,
Mirzikdəki gur axan,
Şır-şır axan bulaqlar.

Gözəl Milli dərəsi,
Gülşənli mənzərəsi.
Meşədəki ayıların,
Eşidilir nərəsi.

Çay qırağı meşələr,
İçində bənövşələr,
Baldırğanı yedikcə,
Çoxalırdı nəşələr.

Mirziyin Tapı düzü,
Qırmızı lalə üzü,
Lalələr dalğalanır,
Oxşadırdı dənizi.

Güneylərdə sürülər,
Kəsilirdi irilər,
Qovurmanı yedikcə,
Artırırdı çox hünər.

Heç kim xəstələnmirdi,
Sanki canı dəmirdi.
Dadlı meyvələrinin
Şirəsini əmirdi.

Gəzdikcə yorulmurdun,
Gedib o gözəl yurdun.
Nəriman, heç qəhərlənmə,
Alacaq Milli Ordun.

*14.01.2011.*

**MƏNİM ATA YURDUM, VEDİBASARIM**

İllərdir, həsrətlə yanır ürəyim,
Yadıma düşdükcə sancır kürəyim.
Çətinləşib artıq ora getməyim,
Mənim ata yurdum, Vedibasarım.

Həsrətlə boylanır yaylaqlarım da,
Sahibini gözləyən oylaqlarım da.
Göz yaşı axıdan bulaqlarım da,
Mənim ata yurdum, Vedibasarım.

Çoxdandır getmirəm o Ağmanlıya,
Bizi unudacaq Dəvəgöz qala.
Porpor yaş axıdır, dolur həd çala,
Mənim ata yurdum, Vedibasarım.

Çox uzaqda qalıb gəzdiyim çağlar,
Fikirli ürəyim gündə qan ağlar.
Qalıb erməniyə o gözəl dağlar,
Mənim ata yurdum, Vedibasarım.

Köçürtdü oradan Stalin, düşmən,
Türkün qatı düşməniydi o həmən.
O vaxtdan yağıya qaldı o Vətən,
Mənim ata yurdum, Vedibasarım.

*09.06.2011.*




**BU DƏRDƏ BİR ÇARƏ YOXDUMU ALLAH**

İllərdi dərd-kədər yuvasındayam,
Qürbətdə həsrətin sobasındayam.
Vətən istəyində, davasındayam,
Səsimə səs verən tapılmır Vallah,
Bu dərdə bir çarə yoxdumu, Allah?!

Cismim arandadı, ruhum dağdadı,
Sevincim dağılıb solda, sağdadı,
Arzular, istəklər hələ yoldadı,
Bilmirəm nə zaman gəlib çatacaq,
Həsrəti içimdən silib atacaq!

Gəncliyim məhv oldu boşa, hədərə,
Xoş günlər qərq oldu qəmə, kədərə,
Həyatım bağlandı qismət, qədərə,
Ilahi, sən qaytar xoşbəxt günümü,
Bəlkələr, gümanlar sarıb ömrümü!
Küskünəm, Vətənsiz, yuvasızam mən,
Üstümdən çəkilmir nə duman, nə çən.
Uçub öz yuvama bir qona bilsəm,
Kədər yuvasından qurtular canım,
Cənnət yuvasına dönər dörd yanım!

*13.12.11.*

**DƏRDİM DAĞ ƏVƏZİ DAĞ OLUB MƏNƏ**

Vətənin həsrəti ömrümü sıxır,
Təttərin suları gözümdən axır,
Atamın məzarı həsrətlə baxır,
Batıbdı kədərə, batıbdı qəmə,
Dərdimdağ əvəzi, dağ olub mənə.

Yanıb yaxılıram odsuz, alovsuz,
Üşüyüb donuram qarsız, qrovsuz,
Dəlidağ, Kəpəzsiz, qaldım Murovsuz,
Qürbətdə büründüm dumana, çənə,
Dərdim dağ əvəzi, dağ olub mənə.

Kəklikli qayalar nəğməsiz qalıb,
Laləli, nərgizli baxçamız solub,
Sevincin nəğməsin hicranım çalıb,
Zilimdən sürüşüb, düşmüşəm bəmə,
Dədim dağ əvəzi, dağ olub mənə.

Küskünəm,həsrətim qəlbi dağlayır,
Kədərim içimdə goşub çağlayır,
Gümanlar daşlaşıb mamır bağlayır,
Nə deyim ey dünya, nə deyim sənə,
Dərdim dağ əvəzi, dağ olub mənə.

*19.12.2011.*




**DAĞ SOVQATININ ÖZ ƏTRİ VAR**

Dağ mehindən sinib gələm,
Yamaclardan enib gələm.
Sizi əziz bilib gələm,
O ellərdə saz ətri var.

Könlün gəzsə uzaqları,
Ərcivanda yaylaqları.
Gül-çiçəkli oylaqları
Gəlin, gəzin, naz ətri var.

Bulaq üstə gəl oturaq,
Can-can deyən məclis quraq.
Əhdi-peyman biz dost olaq,
O dostluqda söz ətri var.

Şe'r yazdım bizim elə,
Bəyənilsə düşər dilə,
Ölmüş bilmə məni hələ,
Nəfəsimdə yaz ətri var.

Pendirlə ye tarxunanı,
Ətirli edər dəhanı.
Ələddin dadıb reyhanı,
Dağ sovqatının öz ətri var.

**BORÇALI**

Bəllidir ellərin ziyarət yeri,
Ziyarətin ocağıdır Borçalı.
Halay bəyi,Cöyrü oğlu Qarası
Mehralı bəy oylağıdı, Borçalı.

Borçalının bağçası var, bağı var.
Dağlarında qaymağı var, yağı var.
Dincəlməyə Ərcivan tək dağı var,
Dincələnin yaylağıdır, Borçalı.

Ali kürsülərdə söyləyir dili,
Öyünür, fəxr edir Şaiqin eli.
Hoya çatır Abbas, Zəlimxan əli,
Hatəmlərin sorağıdır, Borçalı.

Şahəliydi bu yerlərin dayağı,
Hər kəndə, kəsəyə olub marağı.
Qoç Koroğlu, Qaçaq Nəbi sayağı,
Ellərmizin yarağıdır, Borçalı.

Tarix boyu bəlli olub qeyrəti,
Aləmə yayılıb şanı-şöhrəti.
Nəriman tək sevməliyik milləti.
Nur kişilər dayağıdır Borçalı.

Yurdum-yuvam hər an sizi gözləyir,
Ulu babaların izi gözləyir.
Bir də Dağsarvanın özü gözləyir,
Ələddinin çırağıdır, Borçalı.

www.netewe.com

# ŞƏRƏF XAN BİDLİSİNİN «ŞƏRƏFNAMƏ» ƏSƏRİ KÜRD XALQININ TARİXİ MƏNBƏYİ KİMİ

Əvvəli ötən saylarımızda

«Şərəfnamə» də göstərilir ki, Şərəf xanın yeganə oğlu Əmir Şəmsəddin Sasunlu Əli bəyin qızından olmuşdur. Şərəf xan Hezolu Məhəmməd bəyin qızını həmin oğlu üçün almışdır (76, 434). Beləliklə, «Kürdlər» kitabındakı izahatla həmin kitabın müəllifinin istinad etdiyi mənbə arasında uyğunsuzluq aşkara çıxır.

Dövrün bütün mənbələrində Səfəvilərin hakimiyyətə keçməsinə kömək edən Təkəluların türkmən olduqları göstərilmişdir (59, 125). Lakin «Azərbaycan tarixi» kitabında 1531-ci ildə köçəri Kürd əmirlərindən Ulamə bəy (Ölmə-Ş.M.) adlı bir nəfərin Təbrizdə Şah Təhmasib əleyhinə üsyan qaldırdığı göstərilir (34, 251). Mənbələrə istinadən Ölmə Təkəlunun Kürd əmiri qeyd edilməsini əsasən düzgün hesab etmək olmaz.

Bidlis əmirliyinin Şərəf xandan sonrakı tarixi oğlu Əmir Şəmsəddin ilə başlanır. Lakin onun hökmdarlığı çox davam etmədi. Bidlisi göstərir ki: «Əmir Şəmsəddin əvvəl atasının yerində Bidlis hökmdarı oldu, lakin az sonra Sultan Süleyman Qazinin mərhəmətsizliyi nəticəsində öz vətənini tərk etdi» (76, 438).

